# Göyçədən keçən ömür

**O elin, torpağın günəşini, suyunu, havasını, yerini-göyünü çox yaxşı bilir göyçəlilər. Adət-ənənəsini, sevincini-kədərini də, həsrət, qürbətini də həmçinin. Böyük ziyalılarını, ictimai xadimlərini, görkəmli dövlət adamlarını da hörmətlə xatırlayırlar. O da bu yerin övladlarından biridir. Ağrılı-acılı, keşməkeşli taleyi, vətənli-vətənsiz tərcümeyi halı ilə çoxlarına doğmadır, çünki çəkdikləri dərd də eynidir, daşıdıqları həsrət də. Göyçədən, ağrılardan keçib Bakıya - Azərbaycana uzanan ömür yolunda, irəliyə-geriyə gedişlərin içində dilə, qələmə gələsi o qədər duyğular var ki...**

Uşaqlıq çağlarından çörək parası qazanmağa məcbur olan, uşaqkən böyükləşən, müdrikləşən çağlarında isə yurd-yuvasız qalan, həyatın çətinliklərinə rəğmən insanlara işıq kimi paylanan, gözəl, əsl insan, ziyalı - şəxsiyyət ömrü yaşaya bildi. Mərd və sərt, dönməz və əyilməz. Bir qədər də sadə, səmimi və kövrək, ... öyrədənlərin öyrədəni Abuzər müəllim. Magistr dissertasiyamın elmi rəhbəri seçildiyini biləndə sərtliyi, dəqiqliyi, tələbkarlığı ilə gözümün önündə dayanan, lakin işlə bağlı hər görüşümüzdə gözlərim önündə başqalaşan, sadələşən, kövrəkləşən, xalq üçün, cəmiyyət üçün həmişə dəyərli olan bir insan...

Azərbaycanda milli kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından və müstəqil kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcılarından biri, görkəmli elm, təhsil və mədəniyyət xadimi, əməkdar elm xadimi, əməkdar mədəniyyət işçisi, Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, tarix elmləri doktoru, professor... Abuzər Alı oğlu Xələfov. Yaratdığı kitabxanaçılıq fakültəsinə 25 il fasiləsiz olaraq rəhbərlik edən Abuzər müəllim həm də 50 ildən artıq bir müddətdə kitabxanaşünaslıq kafedrasının müdiri olub. Bakı Dövlət Universitetinin sayılıb-seçilən müəllimlərindən olan Abuzər Xələfov çox ilklərə imza atmaqla Azərbaycan kitabxanaşünaslığında ilk elmi məktəb yarada bilmiş, çoxillik səmərəli fəaliyyəti onu dünyaya tanıtmışdır. 2004-cü ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən "İlin adamı - 2004" seçilməsi bu baxımdan heç də təsadüfi olmamışdır.

ABİ-nin direktoru Y.M.Evansın professor A.Xələfova ünvanladığı məktubda deyildiyi kimi, bu titul görkəmli şəxslərin cəmiyyətin quruculuq və inkişafındakı xidmətlərinə görə təltif edildikləri nadir nominasiyadır.

Çoxları kimi onun da həyatında xatırlamaq istəmədiyi, unuda bilmədiyi o qədər şeylər var ki... Abuzər müəllim haqda çox yazılıb, mən də yazmaq istədim. Düşündüm ki, tələbəsi kimi buna haqqım çatır.

Uşaqlığı ağır müharibə illərinə düşmüşdü. 1931-ci ildə qədim Göyçənin Çil kəndində dünyaya gələn Abuzər Xələfov da digər imkansız ailələrin uşaqları kimi 10 yaşından kolxozda işə başlamış, balaca çiyinlərini ağır yükün altına verməkdən belə çəkinməmişdi: dəryazla ot çalmaq, taya vurmaq, kotanla yer şumlamaq... çətin idi, çox çətin. Əlindən buraxmamaq üçün kotanın "buynuzlarını" kiçik əllərinin içində o qədər bərk sıxardı ki, barmaqları qabar bağlayardı. İşdən uzaqlaşdırılmasın deyə heç kəsə bildirməz, ağrılarını içində çəkərdi. Kolxozun ağır işindən evə dönəndə yeməyə də taqəti qalmaz, ağrılardan gözünə yuxu da getməzdi.

Üstəlik təhsilindən də qalmırdı, işləyir, dərsə gedir, dərslərini yaxşı oxuyurdu. Çil kəndində natamam orta məktəbi bitirəndə qonşu Toxluca kənd orta məktəbinə dəyişmişdi. İşləyə-işləyə oxumağın öz çətinliyi var idi. Yaxşı ki, pis günün ömrü az oldu, dağı aşıb, düzə çıxa bildi. Günəş doğdu, canı isindikcə "soyuq günlər"in üşütmələrini unutmağa başladı. Ancaq o günlər onun ömründən öz payını qoparıb aparmışdı.



1950-ci ildə orta təhsilini başa vurub, Bakı Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə qəbul olunan Abuzər müəllim o vaxt - bu vaxt bu doğma divarlar arasındadır. 1955-ci ildən müəllim kimi qalıb işlədiyi bu elm ocağında icra etdiyi müxtəlif vəzifələrin, ictimai işlərin yorğunluğunu da ona bu doğma divarlar unutdururdu bəzən. Auditoriyaya daxil olub tribunaya yaxınlaşanda bütün yorğunluqlar yox olurdu. Maraq dolu mühazirə saatının necə keçib getdiyini heç kəs hiss etməzdi. Seminarlarda ciddi və tələbkar idi, hər şeylə razılaşmırdı, səthi cavabları qəbul etmirdi: "Mən sizin üçün deyirəm, oxuyun, axtarın, mövzunu ətraflı öyrənin, bilmədiklərinizi soruşun. İstəyirəm ki, peşənizi dərindən öyrənəsiniz" - deyirdi. Abuzər müəllimdən yüksək qiymət almaq hər tələbənin işi deyildi. Hərdən maraqlı söhbətlər də edər, həyatın hər üzündən danışardı. Bu, çox təsadüfi hallarda olardı.

Bizə Abuzər müəllimin tələbəsi olmaq onun yaşının müdrik çağına təsadüf etmişdi. Deyilənlərə görə, o, heç dəyişməmişdi.

2015-ci ilin apreli idi. Abuzər müəllim öz kabinetində magistr tələbələrini gözləyirdi. Həmişəki kimi mühazirəsini oxuyub bitirəndə sağollaşmaq əvəzinə: "Kimin imkanı varsa qalsın, köməyiniz lazımdır" - deyib əli ilə otağın bir küncündə qalaqlanmış kağız qutuları göstərdi. Məsələnin nə yerdə olduğunu bilirdik. Bilirdik ki, bir qədər əvvəl kafedra müdirliyindən getmək barədə rektora ərizə ilə müraciət edib: Abel müəllimin: "Abuzər müəllim, siz bizə gərəksiniz, işinizdə qalıb işləsəniz yaxşı olar" - sözlərinə: "Daha bəsdir, indi söz cavanlarındır" - deyə cavab vermişdi. Ali məktəblərimizin flaqmanı olan BDU-nun rektoru Abel Məhərrəmov isə öz səlahiyyətlərindən istifadə edərək bu qocaman pedaqoqu, zəhmətkeş alimi, cəfakeş ziyalını "əliboş" yola salmaq istəməmiş, yüksək xidmətlərinə görə Abuzər Xələfovun "Universitetin fəxri professoru" kimi şərəfli bir ada layiq görülməsi ilə bağlı əmr vermişdi. Onu da deyək ki, bu, Abuzər müəllimin imza atdığı növbəti ilklərdən daha biri idi, çünki bu şərəfli ada universitet müəllimləri arasında ilk dəfə məhz o layiq görülmüşdü.

Abuzər müəllimin otağı kiçik bir muzeyi xatırladırdı. Müxtəlif illərdə, ayrı-ayrı səbəblərdən aldığı mükafatlar, bağışlanılmış hədiyyələr, nadir kitablar, suvenirlər ... və s. qoruyub saxlayırdı. İndi onları səliqə ilə qablaşdırmaq, otağı boşaltmaq lazım idi. Biz tələbələr çox həyəcanlı idik, heç o, özü də sakit görünmürdü.

Əşyaları bir-bir götürür, haqqında qısa şərh verir, nəyin nə vaxt, kim tərəfindən verildiyini söyləyirdi. Hərdən uşaqlara: "Ehtiyatlı olun, əzilməsin, qırılmasın, sınmasın, bunlar hamısı mənim üçün qiymətlidir" - deyirdi.

Müəllimlər də köməyə gəlmişdilər, Elçin, Pərviz, Mehmanəli müəllim təkcə uzun illərin iş yoldaşını deyil, həm də müəllimlərini yola salırdılar. Onlar da gərgin görünürdülər. Arada sükut yarandı, əlində tutduğu kitaba baxa-baxa Abuzər müəllim də xəyala dalmışdı. Birdən: "Pərviz müəllim, bu kitabı görürsən, çox qədimdir. Bilirəm tarix səni çox maraqlandırır. Bunu sənə bağışlayıram" - deyib kitabı ona sarı uzatdı. Sonra da üzünü bizə tutub: "Gəlin, sizə də konfet verim" - dedi və stolun üstündəki konfet qutusunu açmağa başladı. Sanki biz bir himə bənd idik, işi yarıda saxlayıb Abuzər müəllim tərəfə yeridik, körpə uşaqlar kimi ovuclarımızı açıb gözləyirdik. Bu vəziyyətimiz özümüzə də gülməli gəldi...

İşimiz bitmək üzrə idi. Abuzər müəllim bizə minnətdarlıq edir, təşəkkürünü bildirir, xoş sözlər deyirdi: "Gənclik budur, bax mənə elə gəlirdi ki, buradakı işi heç bir günə də qurtarmaq olmaz. Görürsünüzmü, hər şey tamamdı. Çox sağ olun, sizi yordum!" - dedi.

Heç kəs yerindən tərpənmir, danışmırdı, çünki deməyə sözümüz yox idi. Daha doğrusu, onunla vidalaşırmış kimi danışmaq istəmirdik, axı, universitetdən birdəfəlik ayrılmırdı, bundan sonra məsləhətçi kimi işləməli idi. Onu da nəzərə alsaydıq, hələ biz magistrlərə də dərsi var, deməli hələ onunla görüşəcəkdik.

Bu dəfəki sükutu da yenə o, özü pozdu: "Oxumaq, təhsil almaq lazımdır, lap elmin digər pillələrində də özünüzü sınaya bilərsiniz. Bütün bunlarla yanaşı, ailə qurmaq barədə də düşünün, çalışın sağlam ailəniz olsun. Bu, siz gənc oğlan və qızlardan çox asılıdır. Ailə təkcə insanın özü üçün deyil, hər bir cəmiyyət üçün mühüm amildir" - dedi. Daha danışmadı, kövrəlmişdi...

Biz onunla sağollaşıb otaqdan çıxdıq. Bir qədər dəhlizdə dayanıb universiteti tərk etdik. Bəli, tarix yazan, tarixə dönən bu insan yaddaşımıza bax beləcə yazıldı: sadə, səmimi və müdrik...

Bu gün Abuzər müəllim bir zaman Göyçədən başlayan ömür yolunun 85-ci baharını yola salmağa hazırlaşır. Bu illərin çoxu Göyçəsiz olub, o yerlərə bir daha dönmək həsrəti ilə yaşayıb, o yerlərin sevgisi ilə bəzək, naxış vurub ömrünə. Bu ömür, işıq, nur kimi paylanıb hər tərəfə...

**Könül ABDULLAYEVA,**
**BDU-nun "Kitabxanaçılıq-informasiya" fakültəsinin**
**II kurs magistri.**